# Daha bir elektron çalğı aləti



*Əhsən Rəhmanlı*
***tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru***

Tarixən elmin, incəsənətin bütün sahələri üzrə Azərbaycanın istedadlı övladları yetişərək öz ixtiraları, kəşfləri ilə bəşəriyyətə xeyir verib cəmiyyəti irəli aparıblar.Hələ eramızdan əvvəl III minillikdən başlayaraq müxtəlif çalğı alətlərinin daha da təkmilləşmiş formasını yaradanlarvə mükəmməl, imkanlı hala gətirənlərin bacarığı sayəsində musiqimiz yüz illər, yarım əsrlər, on illər, aylar və günlərlə intişar taparaq hazırkı səviyyəyə gəlib çıxmışdır. Çalğı alətlərinin hər əsrdə, əlli və ya on illərdə təkmilləşməsi həmin dövrün tələbindən doğmuşdur.İstər simli, istər nəfəs, istərsə də ritm alətləri dövrə, zamana uyğun olaraq bərpa, təkmilləşmə tələb edir və yeniləri yaranır. Yeni çalğı alətlərinin meydana çıxması da hər dövrün tələbinə uyğun olaraq istedadlı insanların təxəyyülünün məhsulu kimi özünə yer alır və təsdiqini tapır. Əlbəttə, hər yeni yaranan musiqi aləti gələcək zəmanətini ala bilmir və sıradan çıxır.

Tanıtma: "Ramil Nadir oğlu İsgəndərov 1986-cı il yanvarın 7-də Cəbrayıl rayonunun Şıxalıağalı kəndində anadan olub. I sinfi kənd məktəbində oxuyub və sonra köçkünlük dövrü başlayıb.Ramil Bakıda dörd müxtəlif ümumtəhsil məktəbdə oxuyub.Onun istedadını duyan valideynlər Ramilin musiqi təhsili almasını da istəyiblər.Ramil 1998-2003-cü illərdə Binəqədi rayon Mərkəzi Mdəniyyət Evininn tar sifində təhsil alıb. O, 2003-2009-cu illərdə Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kollecində tar ixtisasına yiyələnib. Vaxtında əsgərlik çəksin deyə, kollec təhsili illərində orduya gedib və iki il hərbi xidmət keçib. Ramil kollecdə xalq artsiti Elçin Həşimovdan muğam, əməkdar incəsənət xadimi Ramiz Əzizovdan ixtisas-not dərsi alıb.Təhsil illərində o, nümunəvi tələbə kimi sayılıb-seçilib.R.İsgəndərov köçkünlük həyatı yaşayan Şuşa rayon Turşsu kənd uşaq musiqi məktəbinin xanəndəlik sinfində 2010-cu ildən konsertmeyster kimi çalışmaqdadır. Məktəb Abşeron rayonunun Fatmeyi kəndində fəaliyyət göstərirdi və hazırda Qobu qəsəbəsində yerləşir.

R.İsgəndərovun fikirlərindən: "Tələbəlik illərindən yeni bir elektron tar hazırlamaq barədə düşünürdüm. Mən toylarımızda elektrogitara və türk elektrosazı çalırdım.Tarın toylarda da səslənməsini istədim.Öz tarımızda toyların bütün repertuarını çalmaq olmur.Tarımız zəngin alətdir, möhtəşəmdir, lakin toylarda istifadə olunan elektrik qurğuları, səsgücləndirici aparat sistemi, orada çalınan elektron musiqi alətləri ilə tar işlətmək başa gəlmir. Həm də istər açıq havada, istər kondinsioner altında milli tar tez-tez kökdən düşür axı...

İstədim türk elektosazını əvəz edən, onun imkanlarını verə bilən özümüzün elektron çalğı alətimiz olsun.Fikrimi heç kəsə, heç doğmalarıma da bildirmirdim.2019-cu ildə kağız üzərində eskiz çəkdim.Eskizdə aylarla yerdəyişmələr etdim.Hazırladığım eskizlə tar ustası Musa Yaqubovun yanına gedib fikrimi bildirəndə o, əvvəl çəkindi, tərəddüd etdi. Fikirlərimi tam götür-qoy etdikdən sonra razılıq verdi. Tarın kəlləsini öz fikrimlə düzəltdirdim.Tarımız 11 simlidir, mən hazırladığımı tarı 8 simli etdim.Bu alətə türk elektrosazının simlərini bağladım.Alətə "saller" səsötürücü qurğu yerləşdirilməsini istədim.Bu vasitə türk elektrosazlarında və bəzi elektrogitaralarda var. Arzu etdiyim çalğı alətinin başa gəlməsi 4-5 ay çəkdi.Alətin necə hazırlanmasına, işin gedişatına hər həftə gedib nəzarət edirdim. Tarımın ümumi hazırlanması usta Musa vasitəsilə oldu. Alətin rəng işini və digər məsələləri usta Şirvan Həziyev yerinə yetirdi. Tarın çanağı, qolu və kəllləsinin qıraqlarına sintetik bəzəkli lent yapışdırılması (bu işlər alətin ümumi görünüşünün gözəlliyini təmin edir) da usta Şirvana aiddir. Üçüncü usta Fikrət Quliyev alətdə tələb olunan bütün işləri layiqincə, mənim istədiyim kimi yerinə yetirdi. Alətin üzərində yerləşdirdyimiz bütün qurğuları musiqi alətləri dükanlarından əldə etdik. Arzu-istəyimlə başa gələn alətə RA.TAR adı verdim.

Sual:-RA.TAR nə deməkdir?

Cavab:-RA adım Ramil sözünün əvvəli, qısaldılmış şəkli,TAR isə musiqi alətlərimizinşahıtaraaiddir.

R.İsgəndərovun fikrinin davamı: "Ekvalayzer tətbiq etməyimiz RA.TAR-ın ifa xüsusiyyətlərinə geniş imkanlar açır. Bunun daxilində kamerton var və aləti onun vasitəsilə kökləyirik.

Sual:-RA.TAR-ın simlərinin köklənməsi necədir?

Cavab:-1-ci qoşa sim "do", 2-ci qoşa sim "sol", 3-cü qoşa sim "do", lakin bəzən hər muğama, mahnıya uyğun olaraq 3-ci simin köklənməsində dəyişiklik edirik.4-cü qoşa simi isə "sol" notuna köklənmək lazım gəlir (lakin burada da 3-cü simdəki kimi ifa olunan meldiyaya əsasən köklənmədə dəyişiklik edilə bilər).

Alətin kəlləsinin quruluşunu, görünüşünü də özüm fikirləşmişəm.Kəlləqol iləbütöv yonulub hazırlanıbdır..

Ramil İsgəndərov azərbaycan xalqının istedadlı övladlarından biridir. O, simli, elektron alət ixtira edib. Bu işində heç bir səhv etməyib, öz arzu-istəyini, düşüncəsini, musiqimizə sevgisini və sədaqətini yerinə yetirib.Bu elə-belə başa gəlməyib.Bu missiya onun çiyninə qoyulub. Müqəddəs Quranda deyilir: "Allahın izni olmadan, ağacdan bir yarpaq belə düşə bilməz". Təbii ki, Ramilin bu işi başa gətirməsində Uca Allahın izni olub. Bu adam öz sahəsi üzrə çalışır və hazırladığı çalğı aləti ilə sənətinə xidmət etmək istəyir. Onun istedadı, dərin düşüncəsi və bacarığı olmasaydı, bu elktron aləti meydana çıxara və Əqli Mülkiyyət Agentliyində təsdiq etdirə bilməzdi. Alman şairi, daramaturqu, filosofu, tənqidçisi İohan Henrix Heyne(1797-1850) demişdir: "Ey insanlar, sizdən rica edirəm, istedadlılara kömək edin, istedadsızlar onsuz da özlərinə yol açacaqlar". Bəziləri bu fikri Üzeyir Hacıbəylinin adına çıxırlar. Lakin kimin fikri olduğunu qeyd etdik.Dahi Üzeyir bəy daim istedadlılara yol açıb, arxa durub, kömək edib və irəli çəkib.Hazırda Üzeyir bəylərin yerində laqeydlər, ürəksizlər, eqoistlər əyləşibsə, Ramllərə özünə yol açmaq, xalqına xidmət etmək asan başa gəlməyəcək. Xalqa, ictimaiyyətə müraciət edirəm: "İstedadlı övladına, onun gördüyü işə laqeyd olma, arxa dur və sahib çıx. Bəlkə gələcəkdə o, daha böyük işlər görə bilər. Çalğı alətlərimizin çox olması bizə mane olmaz ki...

RA.TAR elektron çalğı aləti kimi hələlik kövrək addımlarla musiqi alətlərinin tərkibnə daxil olmaqdadır.Son 50 ildə Azərbaycan toylarında elektron çalğı alətlərinə ehtiyac olduğu üçün elektrogitaradan gen-bol istifadə edilib və hazırda da istifadə davam edir.Lakin 20-30 ildə toy ansambllarında daha çox türk elektro sazlarına meydan verilib.-Buna əsas səbəb şadlıq saraylarını idarə edən rəhbərlərin tələbi olub.Musiqidən xəbərləri olmadıqları üçün, gitaranı köhnəlik qalığı sayırlar.Bilmirlər ki, elektrogitara nəinki türk sazlarından, hətta bütün çalğı alərləindən imkanlıdır. Bu alətdə xeyli üstün xüsusiyyətlər və effektlər var. 50 ildir Azərbaycana inkişaf etmiş ölkələrdən müxtəlif markalı elektrogitaralar (hər il yenisi, müasirləri), son dövrdə isə Türkiyədən eletrosazlar gətirilir. Bunlara çəkilən xərclər həmin ölkələrin iqtisadiyyatının inkişafına xidmət edir.Görün nə qədər pullar başqa dövlətlərə axır.Olmaz ki, Ramilin beyninin məhsulu olan RA.TAR-ı işlətdiyimiz elektron alətlərin yerinə istfadə edək, ustalar hazırlasınlar, maliyyə bizə, ölkəmizə qalsın?Öz ustalarımız qazanıb yaxşı yaşasalar, bunun ölkəmizə yalnız xeyri dəyər.Alət burada hazırlandığı üçün çox da baha olmaya bilər.



R.İsgədərov: "Azərbacan tarı üç hissədən ibarətdir:-çanaq, qol və kəllə. Bundan başqa tarın ifa xüsusiyyətlərinə xidmət edən xeyli hissəciklər də var. Çanaq, qol, kəllə mən hazırladığım RA.TAR-da da vardır və bu alət iki hissədən ibarətdir:-çanaq, qol və kəllə birləşik olaraq birlikdə. Öz tarımızda olduğu kimi "RA.TAR-ın da çanağı tut ağacından, qol-kəllə armud ağaçından hazırlanıb.Tarımızda aşıqlar armud ağacından yonulub hazırlanır, RA.TAR-da isə metal müxanizmlərdir.Bu RA.TAR-da heç bir rol oynamır, çünki akustik deyil, elektron alətdir. Birinci hazırlanan alət olaraq hələlik nümunə kimi olduğu üçün belə etdim.Lakin tələbat olsa, biz bu aləti yüngül materialdan hazırlayacağıq. Təbii ki, hələ görüləsi işlərimiz də var. Mən RA.TAR-ı meydana gətirmədim ki, bu alət Azərbaycan tarını əvəz edəcək, xeyr. Gənc tarzənlər toylarda çalışmaq üçün elektron türk sazı, milli saz və elektrogitaraya keçid etməli olurlar.Mən buna ona görə vaxt, əmək, enerji sərf etdim ki, RA.TAR hazırda toy-büsatda, bədii-kütləvi tədbrlərdə, televiziya kanallarında istifadə olunan simli elektron çalğı alətlərini əvəz etsin və həm də başqa ölkələrdən gətirilən yox, özümüzün olsun.Axı RA-TAR türk elektrosazının tembrini və imkanlarını əvəz edə bilir.

Mənə sual verirlər ki, RA.TAR elektrogitaranın səsini verə biləcəkmi?-Cavab verirəm ki, əlbəttə yox.Axı hər çalğı alətinin, istər akustik, istərsə də elektron, öz tembri, öz səslənməsi var. Çalışmışam ki, öz elektron simli alətimiz olsun. Müasir Azərbaycan tarında səs imkanı kiçik oktavanın "do" səsindən II oktavanın "sol"-"lya" səsinə qədərdir. RA.TAR-da isə üç oktava səs yerləşir. Burada səslər böyük oktavanın "sol" notundan II oktavanın "sol"-"lya" notuna qədərdir".

Ramil bəy, öz fikirlərini tam şəkildə əsaslandıraraq danışır.Bu barədə onu dinləmək çox maraqlıdır. O, öz fikirlərini bölüşmək və geniş şəkildə yaymaq üçün ünvanı düz tapıb. Axı bu yazının müəllifi xalq musiqiçisi olaraq bu sahəyə bələddir, buradakı problemlərin daim daxilində olub, 40 ildən artıq konsertlərdə, toylarda çalışıb, bir neçə ansambla rəhbərlik edib və hazırda da musiqi qrupunun rəhbəridir. R.İskəndərovun RA.TAR-na Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi 14.06.2021-ci il tarixli şəhadətnamə verib.

Ramil bəy hazırladığı çalğı aləti və bu barədə ona verilən sənədlə bizə gəldi. Stajlı, təcrübəli bir musiqiçi kimi RA.TAR-la, onun ifa xüsusiyyətləri, tembri, görünüşü ilə yaxından tanış oldum, suallar verib, cavablar aldım. Ramilə məsləhət gördüm ki, RA.TAR-ın özünü, səsini İnternetin facebook səhifəsində (həm də mütəxəssis kimi mənim səhifəmdə) paylaşsın, insanların fikirləri, rəyləri və təklifləri ilə tanış olaq. O, belə də etdi, biz onunla izləməyə və fikirlərlətanış olmağa başladıq.

İlk tanışlıqda müxtəlif fikirlər səsləndi ki, tar səsi vermir, alətin kəlləsi niyə belədir və s. və i.a. Bəli, bu alət bizim milli tarın səsini vermək üçün deyil, türk sazlarını əvəz etmək üçün hazırlanıb. Kim milli tarımızın səsini dinləmək istəyirsə, şadlıq saraylarından tələb etsinlər ki, bizim toyumuzda tar çalınsın və ya özü kimi istəyirsə, dəvət etsin. Axı toylarda tara kiçik elektrik cihazı "pyeza qoşulur və bu özü də tarın dogma səsini vermir. Tarın qarşısında mikrofon qoyulanda, öz səsini verir.Lakin toy dəstələrindəki, geniş konsert salonlarında, meydançalardakı hay-küydən mikrofonla tar səsləndirmək mümkün deyil, yalnız "fon" eşidiləcək.Bəzi toy sahibləri ənənəvi musiqi üçlüyü dəvət edir, xanəndə yarım saat repertuarını təqdim edir, çox gözəl.

Doğrudan da tarixən tar çalğı alətlərimizin şahı sayılıb və bu gün də öz statusunu qoruyub saxlayıb. Tar hökmdarların saraylarında ifa olunub, tarixlərdə adları yaşayan ən məşhur xanəndələrin müşayiətində və həm də solo alət kimi istifadə edilib.

Ulularımız ozanlara, saza müqəddəs bir varlıq kimi baxıblar.Milli sazımızdakı o, ululuq, müqədəslik, hikmət, halallıq, hörmət hanı? Bir anlıq konsertlərdə, toylarda çalınan, səsgücləndiciyə qoşulub səsi beyinləri xarab edən saz ifasını göz önünə gətirin.Sazçalan meydanda rəqs edənlərin arasında dolaşır, bəzən sazla birgə yerə yıxılır, oyun çıxarır, qonaqların ayağı altında saz çalır və aləti urvatdan salır.-Milli sazdan nə səsi çıxır, bilinmir. Milli sazı da belə yıxıb sürüyürlər.Digər tərəfdən milli sazın ifa mkanları nəinki elektrogitara, heç tar, kamança, violin (skripka), klarnet, türk sazı, sintezator qədər deyil axı.Toylarda "Ruhaninin döndərməsi" ilə sifarişlərin yola verilməsi saza heç bir hörmət gətirmir.Həmdə toylardakı milli sazların səslənməsi eybəcər olaraq qonaqları ruhən yorur və bezdirir.Bu barədə düşünmək lazımdır.

***(Davamı 15-ci səhifədə)***



*(Əvvəli 14-cü səhifədə)*

O ki qaldı elektoron alət RA.TAR-a, Ramil bunu toylar, acıq havada keçirilən bədii-kütləvi tədbirlərvə ordu hissələri qarşısında verilən konsertlər üçün nəzərdə tutub. Acıq havada, lap elə şadlıq saraylarında kondinsioner altında akustik alətlər tez-tez kökdən düşür və bu hal ümumi işin səviyyəsini aşağı salır.Toylarda vəziyyət belədir ki, artıq vaxt itkisi olmamalıdır, hər şey çevik, operativşəkildə başa gəlməlidir.Toy müddətində 10-15 dəfə alət kökləməyə yol vermək olmaz.

Digər tərəfdən, indi musiqiçilər də, müğənnilər də ? (çetvert) tonlarla ifaya üstünlük verirlər.İstəsək də, istəməsək də, bu belə baş alıb gedir və həyat, məişətimizə, ifaçılıq sənətimizə daxil olub. Bəzi tarzənlər milli tara əlavə pərdələr qoşurlar ki, həmin səslənməyə nail olsunlar. Nümunə olaraq böyük sənətkar, istedadlı tarzən-pedaqoq Elman Sadıqovu göstərə bilərik.R.İsgəndərov RA.TAR-a on üç ? (çetvert) pərdə də yerləşdirib. Türk sazında olanlar bu alətdə öz yerini alıb.Əlbəttə, bu cavan oğlan əvvəldən mənimlə məsləhətləşsəydi, alətin adı da fərqli olar və çəkisi də xeyli yüngülləşərdi.Ramil mənim tövsiyəmlə razılaşdı, o, alət üzərində təkmilləşmə aparacaqvə RA.TAR xeyli yüngülləşəcək.İnsanlar, siz bu çalğı alətinin kəlllləsinə irad tutmayın. Bu milli tar deyil, RA.TAR toy ansambllarının tərkibində görünüb tarın rəmzi, simvolu da ola bilər. RA.TAR-ı tanınan tarzənlərdən Elman Sadıqov, Ayaz İmranov, Bəhruz Zeynal və Ramil İskəndərovun özünün ifa edib, izahlar apararaq sosial şəbəkələrdə yayması, Atv kanalında 13.08.2021-ci il, Realtv-də 19.08.2021-ci il tarixdə bu çalğı aləti haqqında məlumat verilməsi xeyli marağa səbəb olub. Gələcək yazılarımda son dövrlərə qədər mlli musiqimizin hansı səs sistemi üzərində bərqərar olduğunu qeyd edəcəyəm.Artıq son 30 ildə demək olar ki, həmin səs sisteminə arxa cevrilib. 12 pilləli səs sistemi yalnız tədrisdə, xalq çalğı alətləri ansamblları və orkestrlərində, simfonik və estrada orkestrlərində qalıb. Toy sənəti çetvertlərlə (əslində mikrotonlarla) işləyir.Ramil də düz edib ki, meydana gətirdiyi alətdə 13 ? (çetvert) səsə (mikrotonlara) imkan yaradıb.Bu alət müasir toy ansamblarının boyuna biçilib.

Ramil bu aləti həm də gənc tarifaçıları üçün nəzərdə tutub ki, onlar da toylarda çalıb pul qazana bilsinlər. Axı bizdə xalq musiqiçilərinin yeganə qazanc yeri toy-nişan və ziyafətlərdir.Elə cavanlar var ki, türk sazı çalmaq istəmirlər ki, aparat sistemi dəyişə bilər, yəni tar ifaçılığının quruluşunu (postanovka) qorumaq istəyirlər.Axı tarın öz çalğı forması, qaydaları, ifa sistemi var. Toylarda türk sazını dizləri üstə qoyub çalır, sabahı gün dərsə və ya işə gəlib ansamblda, orkestrdə tarı sinəyə alıb, yaxud da tədrisdə şagirdə, tələbəyə dərs keçərkən, mövzunu əyani şəkildə göstərəndə özü çalmalı olur. Bu zaman yaranan fərq ümumi işə təsir edə bilər axı... Ramil müəllim bu məsələni ciddi şəkildə nəzərə alıb. Onu da qeyd etməliyik ki, RA.-TAR vasitəsilə nəinki Azərbaycan, Şərq, həmçinin dünya musiqi əsərlərini ifa etmək mümkündür. Əziz oxucu.R.İskəndərovun haqlı və haqsız olduğunu zaman göstərəcək. Bir mütəxəssis, xalq musiqiçisi, uzun illər bu sahənin tədrisinə xidmət etmiş biri, tədqiqatçı, sənətşünas kimi mənim bu işə münasibətim gənclərə, istedadlılara diqqət və qayğı göstərməyimdən irəli gəlir.

***2021***